AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ

*Əlyazması hüququnda*

XANIM SƏLİM qızı ƏHMƏDOVA

# DİLİN MAHİYYƏTİ İLƏ BAĞLI İNGİLİSDİLLİ MƏNBƏLƏRİN ARAŞDIRILMASI

5708.01 – German dilləri

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

A V T O R E F E R A T I

BAKI – 2018

İş Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: Fəxrəddin Yadigar oğlu Veysəlli
filologiya üzrə elmlər doktoru, professor

Rəsmi opponentlər: Azad Yəhya oğlu Məmmədov
filologiya üzrə elmlər doktoru, professor

Bəylər İslamxan oğlu Hacıyev
filologiya üzrə fəlsəfə doktoru, dosent

Aparıcı təşkilat: AMEA Dilçilik İnstitutunun Hind – Avropa dilləri şöbəsi

Müdafiə ________ 2018-ci il tarixdə saat _____-da Azərbaycan Dillər Universitetinin nəzdində elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.02.081 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ-1014, Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 134.

Dissertasiya ilə Azərbaycan Dillər Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat _________ 2018-ci il tarixində göndərilmişdir.

Dissertasiya Şurasının elmi katibi,
filologiya üzrə elmlər doktoru, dosent Həmidə Əhməd qızı Əliyeva

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

*Mövzunun aktuallığı.* Müasir dövrdə dilçilik elminə olan maraqdan dolayı bu sahədə aparılan tədqiqatlarn sayı günbəgün artmaqdadır. Bu cür tədqiqatlardan biri də dilin mahiyyətinin müəyyənləşdirilməsi məsə-ləsilə bağlıdır. Dilin mahiyyətinə dair müxtəlif alimlərin nəzəriyyələri, konsepsiyaları, fikirləri mövcud olsa da bu məsələ barədə yekdil bir fikrə gəlmək mümkün olmamışdır[1]. Tədqiqat üçün seçilmiş bu mövzunun aktuallığını təşkil edən amil isə məsələnin ingilisdilli mənbələrdə araşdırılmasından ibarətdir.

*Tədqiqatın obyekti.* Bu tədqiqat işinin obyektini ingilisdilli mənbə və ingilis dilçi və filosoflarının nəzəriyyə və konsepsiyaları təşkil edir.

*Tədqiqatın predmeti.* Tədqiqatın predmeti ingilisdilli mənbələrin təhlilindən əldə edilmiş nəticələrin sistemləşdirilməsindən və ümumiləşdirilməsindən ibarətdir.

*Tədqiqatın məqsəd və vəzifələri.* Tədqiqat işinin əsas məqsədi ingilisdilli mənbələri araşdırmaq, bu mənbələrdə dilin mahiyyəti ilə bağlı fikirləri təhlil edərək, müasir dövrdə bu sahədə mövcud olan nəzəriyyə və fikirləri araşdırmaqdan ibarətdir. Bununla əlaqədar olaraq aşağıdakı vəzifələrin həyata keçirilməsi nəzərdə tutulur:

- ingilis, Azərbaycan və rus dillərində dilin mənşəyi ilə bağlı mövcud elmi-nəzəri ədəbiyyatın tənqidi təhlili;
- dilin ontoloji və metodoloji aspektlərinin öyrənilməsi tarixinə nəzər salmaq və müasir dövrdə bu sahədə olan vəziyyəti təhlil etmək;
- qədim yunan filosoflarının dillə bağlı tədqiqatlarını araşdırmaq;
- orta əsrlərdə dilin mahiyyətinə dair fikirləri öyrənmək, onları əvvəlki dövrdə olan fikirlərdən fərqini müəyyənləşdirmək;
- Humboldtun dil fəlsəfəsini təhlil etmək, onda olan bütün cəhətləri araşdırmaq;
- ingilis filosoflarından B.Rassel, C.Lok, A.Smitin dil haqqında fikirlərini və nəzəriyyələrini təhlil etmək;
- N.Xomskinin dil nəzəriyyəsi və onun spesifik xüsusiyyətlərini təhlil etmək;

---

[1] Звегинцев В.А. Истории языкознания XIX-XX веков в очерках и извлечениях. Ч. 1. Москва: Просвещение, 1964, 464 с.

- C.Ostin və C.Syörlin dil fəlsəfəsini təhlil etmək, onların təliminin özəlliklərini şərh etmək;

- hazırkı dövrdə dilin mahiyyəti ilə bağlı tədqiqatlara nəzər salaraq bu sahədə mövcud konsepsiyaları öyrənib təhlil etmək və ümumiləşdirərək yekun nəticələri əldə etmək.

*Tədqiqatın elmi yeniliyi.* Məlum olduğu kimi, dilin mahiyyətinin müəyyənləşdirilməsi istiqamətində araşdırmalar hələ qədim dövrlərdə başlamışdır. Bu məsələ bir qədər abstrakt xarakterə malik olsa da, çox maraqlı və mübahisə doğuran bir məsələdir. Bu mövzu ilə bağlı bir çox kitablar yazılmış, tədqiqat işləri aparılmış, nəzəriyyələr və konsepsiyalar irəli sürülmüşdür [1]. Lakin ümumilikdə dilin mahiyyətinin nədən ibarət olması məsələsinə dair hələ də son fikir deyilməmişdir. Bu tədqiqat işi istisna olmaq şərtilə, ölkəmizdə, bu vaxta kimi ingilisdilli mənbələrdə dilin mahiyyətinin araşdırılması ilə bağlı tədqiqatlar aparılmamışdır. Tədqiqat işinin məhz ingilisdilli mənbələrdən istifadə edilərək aparılması bu işin daha sanballı olmasına təsir göstərmişdir. İngilis dili materialı əsasında aparılmış bu tədqiqat işində dilin mahiyyətinin müəyyənləşdirilməsinə dair fikirlərin təhlil edilməsi bu işin elmi yeniliyi hesab edilə bilər.

*Tədqiqatın metodları.* Tədqiqat işinin aparılmasında istifadə edilən metod və ya metodların düzgün seçilməsi yerinə yetirilən tədqiqat işinin obyektiv nəticəsini təmin edir. Tədqiqatımızın mövzusu ingilisdilli mənbələrdə dilin mahiyyəti ilə bağlı fikir və mülahizələrin təhlil edilərək öyrənilməsi olduğundan, biz həmin tədqiqatda başlıca olaraq müasir dilçilikdə qəbul edilmiş aşağıdakı metodlardan istifadə etmişik:

1. Sinxron-təsviri metod;
2. Müşahidə metodu;
3. Linqvistik təhlil metodu.

*Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.* Müasir dövrdə dilçiliyin öyrənilməsi həm nəzəri, həm də praktik cəhətdən xüsusi əhəmiyyət kəsb edir. Tədqiqatın nəzəri əhəmiyyəti ondan ibarətdir ki, bu dissertasiya işində ingilisdilli mənbələrə əsaslanaraq, dilin mahiyyətinə dair irəli sürülmüş nəzəriyyə və müddəalar, söylənilmiş fikir və rəylər tənqidi təhlil olunmuşdur. Bu tətqiqat işinin nəticələri problemlə bağlı nəzəriyyələrin işlənib hazırlanmasında istifadə edilə bilər. Ondan həmçinin seçmə fənnin aparılmasında, nəzəri dilçiliyə dair yazılan əsərlərdə istifadə oluna bilər.

---

[1] Veysəlli F.Y. Struktur dilçiliyin əsasları. Bakı: Mütərcim, 2008, 308 s.

*Tədqiqatın praktik əhəmiyyəti.* Tədqiqatın praktik əhəmiyyətinə gəldikdə isə onu bildirmək lazımdır ki, dissertasiyada əldə edilmiş nəticələrdən ümumi dilçilik, dilçilik tarixi fənlərinin tədrisində, həmçinin seçmə fənnin aparılmasında, nəzəri dilçiliyə dair yazılan əsərlərdə geniş istifadə oluna bilər. Bu da həmin tədqiqatın praktik əhəmiyyətə malik olduğunu sübut edir.

*Tədqiqatın mənbələri.* Tədqiqat üçün dil materialları, misallar müasir ingilis və amerikan dilçilərinin əsərlərindən, eləcə də ingilisdilli internet saytlarından seçilmişdir.

*Tədqiqatın elmi fərziyyəsi.* Tədqiqatın elmi fərziyyəsi ondan ibarətdir ki, ondan dilin mahiyyətinin açılmasında ingilis filosoflarının xidmətləri lazımınca qiymətləndirilməlidir.

*Müdafiəyə çıxarılan müddəalar:*

- qədim mənbələrdə dilin mahiyyətilə bağlı fikirlərin ümumi səciyyəsi;
- dilin ontoloji və metodoloji aspektlərinin öyrənilməsi;
-orta əsrlərə aid mənbələrdə dilin mahiyyətinin müəyyənləşdirilməsi;
- V.fon Humboldt və ondan sonrakı dövrdə filosofların dil haqqında nəzəriyyə və fikirlərinin araşdırılması;
- İngilis filosoflarının dilin mahiyyətilə bağlı konsepsiyasının təhlili;
- XX əsr dilçiliyində dilin mənşəyinə dair fikirlərin safçürük edilməsi;
- N.Xomskinin dil nəzəriyyəsinin spesifik xüsusiyyətləri və onun tənqidi təhlili;
- hazırkı dövrdə dilin mahiyyəti ilə bağlı tədqiqat işlərinin aparılması.

*Dissertasiyanın aprobasiyası.* Dissertasiya Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir. Dissertasiyanın əsas müddəaları respublikanın müxtəlif universitetlərinin elmi jurnallarında və eləcə də Rusiyada nəşr edilən toplularda dərc olunmuşdur. Bundan başqa dissertasiyanın ayrı-ayrı fəsilləri haqqında Beynəlxalq və Respublika konfranslarında məruzələr edilmişdir.

*Dissertasiyanın quruluşu.* Dissertasiya işi giriş, üç fəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQAT İŞİNİN ƏSAS MƏZMUNU

Tədqiqatın "Giriş" hissəsində mövzunun aktuallığı, tədqiqatın obyekt və predmeti, elmi yeniliyi, məqsəd və vəzifələri, nəzəri və praktik əhəmiyyəti, material və metodları, müdafiəyə çıxarılan müddəalar, işin aprobasiyası və dissertasiyanın quruluşu haqqında məlumat verilir.

Dissertasiyanın "Dilin mahiyyətinə dair ilkin mənbələrin araşdırılması" adlanan birinci fəsli üç yarımfəsildən ibarətdir.

Birinci fəslin birinci yarımfəsli "Dilin ontoloji və metodoloji aspektlərinin öyrənilməsi tarixindən" adlanır. Bu yarımfəsildə dilin ontoloji və metodoloji aspektlərinin öyrənilməsinə ekskurs edilir.

Bütün insanların danışdığı dil çox mürəkkəb və mücərrəd bir məfhumdur desək, yanılmarıq. Əsrlərdir ki, insanlar dilin yaranması, mahiyyəti barədə bəzən düşünür, bəzən isə fərqinə varmadan ondan istifadə edirlər. Amma alimlər və dilçilər tədqiqata başladıqları vaxtdan, onları dilin yaranması və mahiyyəti düşündürmüşdür. Bəziləri düşünürlər ki, dil canlılardan ancaq insanlara məxsusdur, bəziləri isə dilin eyni zamanda heyvanlara da məxsus olmasını iddia edərək, heyvan dilinin öyrənilməsi sahəsində tədqiqatlara başlamışlar[1]. Dilin təşəkkülü haqqında ilkin fikirləri təhlil etmək üçün əvvəlcə dini inanclarla dolu mənbələrə nəzər yetirmək məqsədəuyğun olardı. İslam dünyasının müqəddəs kitabı Qurani-Kərimdə canlıların Allah-təala tərəfindən adlandırılmasına aid xeyli sayda ayələr mövcuddur. Yəhudi-xristian inanclarına əsasən, Allah Adəmə bütün əşyaları adlandırmaq gücü (imkanı) verir[2]. "İncil"də yazılır: "Rəbb Tanrı yerdəki heyvanların, göydəki quşların hamısını torpaqdan yaratmışdır. Onlara nə ad verəcəyini görmək üçün hamısını Adəmə göstərmişdir. Adəm hər birinə nə ad verdisə, o canlı o adla tanındı" [3]. Buna oxşar inanclar bütün dünyada mövcuddur.

Dilin mahiyyəti haqda danışdıqda, qeyd edək ki, əgər dil sadəcə ünsiyyət vasitəsi kimi müəyyən olunursa, o halda dil bütün insanlar üçün unikal deyildir. İnsan dilinin əsas xüsusiyyəti onun yaradıcı aspektinin olma-

---

[1] Premack Dd. Human and animal cognition: Continuity and discontinuity. Proc Nat Aca Science, 2007, 104 p.

[2] İncil. Müqəddəs Kitab. Əhdi-Ətiq və Əhdi-Cədid. Bakı: Müqəddəs Kitab Şirkəti, 2009, 479 s.

[3] Yenə orada

sıdır[1]. Dilin mənşəyi ilə bağlı mənbələri araşdırarkən, dilin Allah tərəfindən insanlara bəxş edilmiş nemət olması faktı dünyada mövcud olan dinlərdə və dini mənbələrdə əks olunmuşdur. Digərləri isə ehtimal edirdilər ki, dil "təbiətin hökmləri" ilə yaranmışdır[2].

Dilin ontoloji aspektindən danışmazdan əvvəl ontologiya sözünün mənasnı izah etməyə ehtiyac duyulur. "Ontologiya" metafizika ilə əlaqədar fəlsəfi biliklər sistemidir. "Ontologiya" sözü yunan mənşəli olub "mövcudluq haqda elm" və ya "mövcudluq haqda ümumi doktrina" anlamına gəlir[3]. Dilin ontoloji funksiyasına gəldikdə, qeyd etmək lazımdır ki, dilçilərin nəzərində kommunikasiya müxtəlif plan və rakurslarda baş tutur. Dil insanın özünü spesifik ifadə forması olaraq onun danışıq həyatının tarixi bir anında öz MƏNinin göstəricisidir (fikir, mənəvi və fiziki hal, arzu, reaksiya və s.). Dilçilikdə alimin elmi mövqeyi onun metodoloji prinsipləri vasitəsilə formalaşıb müəyyənləşdirilir. Metodoloji prinsiplər dedikdə dil və onun öyrənilməsi üsulları, subyekt və obyekt arasında qarşılıqlı əlaqə, elmi biliklərin yaranması üsulları və onlara baxışlar məcmusu başa düşülür[4].

Dilin mənşəyi ilə bağlı bütün dinlərdə və mifologiyalarda çoxlu hekayələr mövcuddur. Bu barədə həm ilahi mənşə nəzəriyyəsi, təkamül inkişafı və dil insan kəşfi kimi müxtəlif səpkilərdə təqdim olunmuşdur. 1986-cı ildə Paris Dil Cəmiyyəti bu mövzu ilə əlaqədar müzakirələr "qanundankənar" elan etmişdir. Elmi dəlillər tapmağın çətinliklərinə baxmayaraq, dilin inkişafının və təbiətinin qiymətli anlamları dilin mənşəyi barədə fərziyyələrin çoxluğunu göstərir.

Birinci fəslin ikinci yarımfəsli "Qədim və orta əsrlər dilçiliyində dilin mahiyyətin ilə bağlı idea və fikirlər" adlanır. Bu bölmədə Qədim Hindistanda dilçilik elminin təşəkkül tapması ilə bağlı fikirlər yer almışdır. E.ə. V əsrdə ilk hind dilçisi Yaska vedaların dili ilə bağlı şərhlər vermişdir. Sanskrit dilinin ilk tədqiqatçılarından olan Paninin yazdığı linqvistik-filoloji traktat qədim dilçiliyin ən böyük elmi əsəri kimi dəyərləndirilir. Eramızın I əsrində hind alimi Bxartxarinin özünəməxsus ontoloji baxışları olmuşdur. Onun dil fəlsəfəsinə gəldikdə, burada, aşağıda göstərilmiş 3

---

[1] Almond P.C. Adam and Eve in Seventeenth-Century Thought. Cambridge: Cambridge University Press, 1999, p. 252.

[2] Bloomfield L. An Introduction to the Study of Language. USA: New York, 1983. 335 p.

[3] www. Barry Smith. Husserl, Language, and the Ontology of the Act1. 2015. 19 pp.

[4] Михаил Л. Методологические аспекты объекта психологии и языкознания. Acta Universitatis Lodziensis. Folia Linguistica Rossica. 4, 2008. c. 65-78.

məsələ mühüm hesab edilirdi: 1. Dil və gerçəklik arasında qarşılıqlı əlaqə; 2. İstifadə (usage), kontekst və dil oyunları. 3. Dilin ifadəolunmazlığı və xüsusiliyi.

Bxartxari dildə iki aspektin olduğunu göstərir: daxili, yəni ifadəolunmaz, başqa sözlə desək, təfəkkürdə olan dil (language in mind) və zahiri, yəni ifadə edilən dil. Zahiri dil bir tərəfdən təfəkkürdə olan dilə, digər tərəfdən isə zahiri obyektlərə istinad edir. Digər hind dilçisi V.Katyayana da dillərin tədqiqilə məşğul olmuş və ilk olaraq "dillərin tarixi inkişafı ideyasını" dilçiliyə gətirmişdir. O, sanskrit dilini digər orta hind dillərinin yaranması üçün mənbə hesab etmişdir. Hindistan dilçiləri dilin təhlilində nailiyyətlər qazanmış və dilçiliyin gələcək inkişafına, əsasən də Çin, ərəb dilçiliyinin inkişafına təkan vermişlər[1].

E.ə. III əsrdə Çin dilçiləri leksikologiya, leksikoqrafiya, qrammatika, fonetika, dialektologiya məsələləri ilə məşğul olmuşlar. Qədim Çin dilçiləri mənası olan və olmayan sözləri, əsas və köməkçi sözləri bir-birindən fərqləndirirdilər. Onlar, həm də tənqidi mətnşünaslıq, sintaksisdə sintaqmlar sahəsində də tədqiqatlar aparmışlar[2].

Məlum olduğu kimi, müasir dilçilik yunan dilçiliyinə əsaslanır. Yunan dilçiliyinin tarixi Hind və Çin tarixindən sonra başlanır. Yunan dilçiliyini qeyd edilən dilçilik mənbələrindən əsas üç cəhət fərqləndirir:

1. Yunanlar ilk olaraq yazıda samitlərlə yanaşı, saitləri də qrafik cəhətdən göstərmişlər; 2. Yunan dilçiliyi fəlsəfi zəmində yaranmışdı və ona fəlsəfənin bir qolu kimi baxılırdı; 3. Yunan dilçiliyinin inkişafı ayrı-ayrı filosof və dilçilərin adı ilə bağlı deyildi. Yunan dilçiləri və filosofları polemikalar aparırdılar və məsafə baxımından bir-birindən uzaqda yaşayıb-yaratsalar da, bu polemikaları inkişaf etdirir və müzakirə edirdilər. Yunan dilçiliyinin inkişafı iki hissəyə ayrılır:

a) Dil problemlərinin fəlsəfi zəmində izah edildiyi fəlsəfi dövr (e.ə. V-III əsr); b) Dilçiliyin müstəqil elm kimi formalaşdığı İskəndəriyyə dövrü (e.ə. III əsr - eramızın IV əsri).

Dilçilik elmi qarşısında qədim Roma dilçiliyinin elə də xidməti olmamışdır. Romalılar bu sahədə də yunanlardan bəhrələnmişlər. Belə ki, onların da dilin mahiyyəti barədə düşüncələri yunanlarınkı ilə üst-üstə düşürdü. Onlar eyni zamanda cümlə təsnifatını, yaxud nitq hissələrini (*latınca* partes

---

[1] Rəcəbov Ə. Dilçilik tarixi. Bakı: Maarif, 1987, 538 s.
[2] Axundov A. Ümumi dilçilik. Bakı: Maarif, 1988, 98 s.

orationis) Dionisius Traksa əsaslanaraq tədqiq etmişlər[1].

Ərəb dilçilərini dilin mənşəyi məsələsi maraqlandırmışdır və dilin mənşəyi məsələsi ilə bağlı onlar 3 fikir irəli sürürdülər:

1. Dil Allah tərəfindən Adəmə verilmişdir;

2. Dil bəşəriyyətin baniləri olan patriarx qocalar arasında əldə edilmiş razılıq əasında yaradılmışdır;

3. Dil Allah tərəfindən Adəmə azacıq söz şəklində verilmişdir, lakin sonralar insanlar onu inkişaf etdirmişlər[2].

Bu fəlsəfi problemin izahı ərəb dilçiliyinin mahiyyətini təşkil etmirdi. Beləliklə, tam qətiyyətlə demək olar ki, Avropa dilçilərinin əhəmiyyətli dərəcədə bəhrələndikləri dövr qədim dövr dilçiliyi olmuşdur.

Orta əsrlərdə dilin mahiyyəti haqda danışarkən bu dövrdə, yəni orta əsrlərdə və eləcə də İntibah dövründə dillərin hamı tərəfindən qəbul olunmuş iki sferasının mövcudluğunu qeyd etmək lazımdır: 1. Kanonik (dini) və klassik sfera; 2. Varvar və ya vulqar (yazısız və ya yeni yazılan) sfera[3].

Qədim dini mənbələrdən biri olan "İncil"də dilin yaranmasına aid çoxlu surələr mövcuddur. "İncil"lə tanış olan bir çox alimlər, o cümlədən Hippolu Avqustin və Dante Aliqyeri iddia edirdilər ki, Adəm və Həvvanın cənnətdən qovulması ilə insan dilinin mənşəyinin təməli qoyulur.[4]

Orta əsrlərdə artıq dünya dillərinə yeni baxışlar formalaşmağa başlamışdır və insan dilinin universal mahiyyət kəsb etməsi fikirləri səslənirdi[5]. Burada Allahın yaratdığı aləm və onun mahiyyəti haqda danışılır.

J.A.Boduen de Kurtene dəfələrlə qeyd etmişdir ki, "yer kürəsində dillərə olan baxışda çevriliş"ə təkan verən xristianlıq olmuşdur[6]. Avropada xristianlığın yayılması orta əsrlərdə elmin bütün sahələrində, o cümlədən dilçilik sahəsində də durğunluğa səbəb oldu.

Orta əsrlərdə Etiyen Bonotun (Kondillak) dilçiliyin öyrənilməsilə bağlı köməyi dilin mənşəyinə aid yazdığı əsər olmuşdur. "Essay on the origin of Human Knowledge" ("İnsan biliyinin mənşəyinə dair esse")

---

[1] Звегинцев В.А. Истории языкознания XIX-XX веков в очерках и извлечениях. М.: Просвещение, 1964, Часть 1. 464 с.

[2] Rəcəbov Ə. Dilçilik tarixi. Bakı: Maarif, 1987, 538 s.

[3] Жинкин Н.И. Язык - речь - творчество. Избранные труды. М.: Лабиринт, 1998. 368 с.

[4] Locke J. An Essay Concerning Human Understanding. Oxford: Oxford University Press, 1975, 282 p.

[5] Жинкин Н.И. Язык - речь - творчество. Избранные труды. М.: Лабиринт, 1998, 368 с.

[6] http://rudocs.exdat.com/docs/index538247.html?. 9 pp.

əsərində o, R.Dekartın rasionalizminə və anadangəlmə fikirlər ideyasına qarşı çıxdı. Dilin analitik xarakteri odur ki, dil insanlar tərəfindən məqsədyönlü şəkildə yaradılan vasitədir. Kondillak bunu təşkil olunmuş, yaxud süni dil adlandırır[1]. İlk öncə Kondillak dilin yaranmasında Adəm və Həvvanın iştirakını vicdanla istisna edir, çünki Allah onları ayrı-ayrılıqda linqvistik və idraki qabiliyyətlərlə təmin edərək yaratmışdı.

Orta əsrlərdə dilin fəlsəfəsi məsələsinə gəldikdə isə, qeyd edək ki, intibah dövrünün əsas fəlsəfi cərəyanı rasionalizm idi. Rasionalizm ağlın, şüurun, idrakın, zəkanın qüdrətinə inanır, faktlara isə o qədər də əhəmiyyət vermirdi[2]. Dövrün ikinci cərəyanı XVIII əsrdə meydana çıxan sensualizm idi. Sensualizm rasionalizmə əks olan fikirlər irəli sürərək faktları əsas götürürdü. Rasionalistlərin fikrincə, dil şüurla, şüur isə məntiqi qanunla bağlıdır. Sensualistlər göstərirlər ki, dil şüurla əlaqədər olsa da, hər hansı bir xalqın psixikası ilə də bağlıdır.

Dissertasiyanın bu fəslinin üçüncü yarımfəsli "Gənc qrammatiklərin dilin mahiyyəti haqqında ilkin ingilisdilli mənbələrə təsiri" adlanır.

"Gənc qrammatiklər" dili fərdin davranışının bir hissəsi kimi götürür, fonetikanın, fonetik qanunların ardıcıllığının tədqiqinə xüsusi fikir verməklə bir tərəfdən fizika, digər tərəfdən isə biologiyadan bəhrələnməyi üstün tuturdular. "Gənc qrammatiklər" xatırlananda, bir qayda olaraq, K.Bruqmanın H.Osthofla birlikdə yazdıqları "Hind-german dillərində morfoloji tədqiqlər" adlı əsərinin girişini nümunə gətirirlər. Bu əsərdə əsas fikir odur ki, səs qanunları istisnasızdır və anologiya həmişə qüvvədədir. Alimlərin fikrinə görə, səs qanunları olmadan dilin tədqiqi mümkün deyildir. Alimlər iddia edirdilər ki, dilləri və dialektləri tədqiqata cəlb etməklə onlar haqlı olduqlarını sübut etmək istəyirdilər. Onlar dili tarixi hadisə hesab edirdilər[3].

"Gənc qrammatiklər" məktəbinin nümayəndəsi olan K.Bruqmanın dilin mahiyyəti ilə bağlı fikirlərini belə səciyyələndirmək olar: dil ictimai deyil, təbii hadisədir və təbiətşünaslığın bir qoludur. Həmin məktəbin digər üzvü U.Uitni isə dilin təfəkkürlə qarşılıqlı əlaqəsinin olmasını göstərmişdir.

---

[1] Thomas M. Fifty Key Thinkers on Language and Linguistics. Routledge Taylor and Francis Group. USA: London and New York, 2011, 306 p.

[2] Thomas M. Fifty Key Thinkers on Language and Linguistics. USA: London and New York, 2011, 306 p.

[3] Brugmann K. 'Perface' to Morphological Investigations in the Sphere of the Indo-European Languages I, 1967 (with H.Osthoff), in W.P.Lehmann (ed. and trans.), A Reader in Nineteenth-Century Historical Indo-European Linguistics. India: Indian University Press, 1878, pp.197.

Digər XX əsr dilçisi V.D.Uitni dil dəyişikliyi üçün ehtimal edilən analogiya kimi Ç.Darvinin təkamül nəzəriyyəsini qəbul edirdi[1]. V.D.Uitni naturalistlərin xüsusi növlərin variativliyi haqqında suallarına cavab olaraq, təbii seçki və nitqlərin mənşəyi haqqında yazırdı: "Bütün bunlar hamısı sıx şəkildə qohum olan dilçi tələbinin daim rəftar etməli olduğu hadisə ilə əlaqədar suallardır"[2]."Gənc qrammatiklər" məktəbinin nümayəndələrindən biri də F.Boars hesab edilir. O, Sakit okeanın şimal-qərb sahillərində yaşayan aborigenlərin entoqrafik mənşələrini araşdırması ilə məşhurdur. F.Boars Amerika Antropologiya Assosiasiyasının və antropologiyada yerli amerikalıların dilinin araşdırılması barədə ilk doktorluq proqramının yaradıcısı hesab edilir. O, dilin yaranmasının mədəni, arxeoloji sahələri arasında əlaqə qurmağa çalışır və yazır: "Dillərin genetik əlaqələrinin öyrənilməsi olduqca sadədir. Belə ki, fonetikada, dilin söz tərkibində və qrammatikanın incəliklərində oxşarıq tapmaq olar. Dillərin eyni əcdada sahib olmalarına dair ən kiçik şübhə belə ola bilməz. F.Boars dilin mahiyyətinin öyrənilməsində ən doğru tədqiqat üsulu kimi dialektlərin öyrənilməsini irəli sürür[3].

C.R.Firs iyirminci əsrin birinci yarısında İngiltərədə dilçilik nəzəriyyəsində nüfuzu olan əsas simalardan idi[4]. Onun əsərləri post-blumfildçilərin mənanın analitik vasitə olması nəzəriyyəsi ilə uyğun gəlmir və törəmə qrammatiklərin universalları qəbul etməsilə ziddiyət təşkil edir. Bəzi müasir dilçilər C.Firsin işlərinin onun dövrünə deyil, dövründən qabaqkı vaxta aid olduğunu qeyd edirdilər. Məsələn, D.Batt qeyd edir ki, müasir dilçilər yaxşı olardı ki, C.Firs kimi qabağı görə bilsinlər. Necə ki, C.Firs dili daha geniş sosial kontekstdə nəzərdən keçirtməkdə və mənanın mərkəzləşməsi barədə fikirlərində təkid etmişdir[5]. Bəzən belə mübahisələrə də rast gəlmək olur ki, C.Firsin prosodik təhlili müasir autoseqment və metrik fonologiya ilə əlaqədardır ya yox. C.Firsin fikirləri genişləndi və neofirs məktəbi yarandı. Bəzən də C.Firsin fikirlərini onun tələbəsi M.A.K.Həlideyinki ilə eyniləş-

---

[1] Thomas M. Fifty Key Thinkers on Language and Linguistics. USA: London and New York, 2011, p. 119.
[2] Whitney W. D. Language and the Study of Language. New York: AMS Press, 1971, p. 170.
[3] Boars F.Handbook of American Indian Languages.Cambridge: Cambridge University Press, 2013, p. 44.
[4] Firth J.R.Papers in Linguistics 1934-1951. Oxford: Oxford University Press, 1957, p. 78.
[5] Butt D.G. 2001. 'Firth, Halliday, and the development of systemic functional theory', in S.Auroux, E.K.K.Koerner, H.-J.Niederehe and K.Versteegh (eds), History of the Language Sciences: Vol.2, Berlin and New York:Walter de Gruyter, 344 p.

dirirlər, lakin C.Firsin firikləri M.A.K.Həlideyin fikirləri ilə oxşarlıq təşkil etmir.

Dissertasiyanın "Humboldtun dil fəlsəfəsinin dilin mahiyyəti haqqında ingilisdilli mənbələrə təsiri" adlı ikinci fəsli iki yarımfəslə ayrılır. Bu fəslin birinci yarımfəsli "V.fon Humboldtun dil fəlsəfəsinin B.Uorf və E.sepirə təsiri" adlanır. V.fon Humboldtun dilçilik konsepsiyasının əsasını "xalqın ruhu" və onun dilinin eyniliyi haqqında təlim təşkil edir. V.fon Humboldt bütün dillərin təşkil olunmuş prinsiplərə şərik olduğunu iddia edirdi. Dilçilik tarixində V. fon Humboldtun daha bir böyük xidməti də onun dili sistem kimi qəbul etməsidir. O, "Dillərin müxtəlif dövrlərdə inkişafına tətbiq edil-məklə onların müqayisəli öyrənilməsi haqqında" əsərində qeyd etmişdir ki, "dil həm inikasdır, həm də işarədir". V.fon Humboldt dillə nitqi fərqləndirərək yazırdı ki, "dil onun məhsullarının məcmusu kimi ayrı-ayrı nitq fəaliyyəti aktlarından fərqlənir"[1].

V.fon Humboltd dilin ilkin mənbəyi haqqında danışdıqda göstərmişdir ki, "dilin ilkin mənbəyi bizim üçün əlçatmaz sirdir"[2]. V.fon Humboldt bununla bağlı araşdırmalar aparmışdır. O dili əvvəlcədən əta edilmiş bir şey kimi təsəvvürə gətirməyin qeyri-mümkünlüyünü bildirərək, onun yaradılması üçün insanın olmasını əsas götürürdü və göstərirdi ki, dil insandan yaradılmışdır. Onun fikrincə, dili icad etmək qeyri-mümkündür və bu səbəbdən də onu bəşəriyyətin şüurlu yaradıcılığı hesab etmək olmaz.O, göstərirdi ki, dil ictimai təbiətə malikdir və buna səbəb kimi yaşamaq uğrunda mübarizədə insanın digərlərilə ünsiyyət qurmaq üçün dilə ehtiyac duyduğunu göstərmişdir[3]

V.fon Humboldtun dilin mənşəyi haqda baxışlarında həm materialist, həm də idealist fəlsəfə görmək mümkündür. Ancaq onun dil haqqında nəzəriyyəsinin əsasını idealist fəlsəfə təşkil edir. Humboldt hesab edirdi ki, dil öz-özlüyündə deyil, nəyəsə münasibətdə bir şeydir. Ontoloji baxımdan dil görünəndir, qnesioloji baxımdan isə düşüncə və ya təfəkkürdür. O, dilin mahiyyətinin öyrənilməsi üçün onun yeni, daha münasib zəmində "instrument" kimi deyil, "orqan" kimi götürülməsinin vacibliyini vurğulamışdır[4].

---

[1] Brown R.L. Wilhelm von Humboldt's Conception of Linguistic Relativity. The Hague: Mouton, 1967, 133 p.
[2] Rəcəbov Ə. Dilçilik tarixi. Bakı: Maarif, 1987, 538 s.
[3] Thomas M. Fifty Key Thinkers on Language and Linguistics. USA: London and New York, 2011, 306 p.
[4] Veysəlli F.Y. Struktur dilçiliyin əsasları. Bakı: Mütərcim, 2008, 308 s.

Onun dilçilik görüşləri ziddiyyətli olmuşdur. Belə ki, o, dili bir tərəfdən insanların ağlında və qəlbində olan bir şey, digər tərəfdən isə onu sosial hadisə hesab edirdi. Humboldt dilin inkişafını onun mövcudluq forması hesab etmişdir və “dili xalqın ruhu, xalqın ruhunu isə xalqın dili” adlandırmışdır.

V.fon Humboldtun dil fəlsəfəsinin həm B.Li Uorfun, həm də E.Sepirin yaradıcılığına güclü təsiri olmuşdur. Belə ki, onlar nisbilik nəzəriyyəsini V.fon Humboldtun nəzəri görüşlərinə söykənərək işləyib hazırlamışlar.

B.Uorf dilin, düşüncənin və mədəniyyətin əlaqəsini müəyyən etməyə cəhd etmişdir. Öz dəst-xəttinə görə o, E.Sepirin davamçısı da hesab olunurdu desək, yanılmarıq[1].B.Uorfun nəzəriyyəsi “Uorf fərziyyəsi”, yaxud “Sepir -Uorf fərziyyəsi” adlanırdı.

Tədqiqatın ikinci fəslinin “İngilis filosoflarının (B.Rassel, C.Lok, A.Smit) dil haqqında fikirləri” adlı ikinci yarımfəslində dil haqqında fikir yürüdən ingilis filosofları B.Rassel, C.Lok və A.Smitdən bəhs edilir.

B.Rasselin fikrincə, qədim dövrdə dilin mahiyyətinə yol tapmaq əlçatmaz hesab edilirdi. Bu filosofa görə, dil həm əmr, göstəriş vermək üçün lazımdır, həm də söyüş üçün nəzərdə tutulmuş xüsusi dil var. Dil emosiya, ifadə və ya digərlərinin davranışına təsir etmək üçün mövcuddur. Bu qeyd edilən funksiyalar cüzi də olsa uğurlu şəkildə həyata keçirilə bilər[2]. B.Rassel dilin iki ilkin funksiyasının olduğunu göstərir: ifadə etmə funksiyası və kommunikasiya funksiyası. İnsan öz qüssə-kədərini “Oh!”, “Vay” sözlərilə ifadə edir və yaxud da işarə jesti ilə nəyisə göstərə bilər[3].

Dilin mahiyyətilə məşğul olan digər ingilis empirist filosofu Con Lok olmuşdur və o, fizik alimlər R.Boyl və İ.Nyutonla dostluq etmişdir. C.Lok dilin fəlsəfəsi və psixologiyasını öyrənən elmə ciddi köməklik göstərmişdir. O, ünsiyyət üçün dili ən əsas instrument hesab edirdi. C.Lok iddia edirdi ki, qarışıqlıqdan yayınmaq üçün mürəkkəb fikirlər sadə fikirlərlə çatdırılmalıdır[4]. Onun epistemologiyasının ən məşhur cilası odur ki, fikir boş proqramdır, bu proqram təbii fikirlərdən uzaq və həssas təcrübəyə əsaslanaraq yazılır. N.Xomskinin dilçiliyin historioqrafiyası ifadə olunan

---

[1] Thomas M. Fifty Key Thinkers on Language and Linguistics. USA: London and New York, 2011, p. 195.

[2] http://society.polbu.ru/reale_westphiloiv/ch126_i.html.Логичес-кий атомизм и встреча Рассела с Пеано. Рассел против "Второго" Витгенштейна и аналитическая философия. 2016, 4 с.

[3] http://society.polbu.ru/reale_westphiloiv/ch126_i.html.Логический атомизм и встреча Рассела с Пеано. Рассел против "Второго" Витгенштейна и аналитическая философия. 2016, 4 с.

[4] Locke J. An Essay Concerning Human Understanding, (P.H.Nidditch, ed.), Oxford: Oxford University Press, 1975, 282 p.

mövqey C. Lokun mövqeyinə yaxındır. Bu mövqe dil və şüurun təbiəti haqqında "rasional" versiyanı "empirik" baxışlarına qarşı qoyur[1].

Digər ingilis filosofu A.Smit iqtisadiyyat, fəlsəfə ilə yanaşı dil fəlsəfəsi ilə də məşğul olmuşdur. Bəzi mənbələrdə A.Smiti sistem axtarışında olan bir filosof kimi xarakterizə edirlər. O, qeyd edir ki, dilin yaranması xüsusi isimlərdən başlayır. A.Smit öz əsərində "təbiət" anlayışına müraciət edir və qeyd edir ki, "təbiətdə" dil vasitələri dəqiq şəkildə bir-biri ilə qarışdırılır, amma onlar müxtəlif növ komponentlərə ayrılmamışdır[2]. Dilin təbiiliyi konsepsiyasına uyğun olaraq, A.Smit ilklik (böyüklük) kriteriyasını yaratmışdır. O, fikirləşirdi ki, linqvistik forma sensor daxiletməni nə qədər aydın əks etdirirsə, o, təbiətə bir o qədər yaxın olur və nəticə etibarilə, onun daha erkən yaradılması üzə çıxır. A.Smit bunu semiotik meyar hesab edir və bunu işarələyənlə işarələnəni birləşdirən əlaqələr hesab edir[3]. A.Smitin dil haqqında nəzəriyyəsi 3 əhəmiyyətli istiqamətdə inkişaf etdirmişdir.

1. Diaxronik çərçivədən sinxronik çərçivəyə keçid;

2. Dil ilə əlaqəli olan mental əməliyyatların həcmi əsas koqnitiv əməliyyatları çıxmaq şərtilə getdikcə genişlənir;

3. Dilin strukturundan onun istifadəsinə keçid hiss edilir ki, bu da dil-təfəkkür əlaqəsinə uyğun gəlir;

Digər dilçi L.Vitqenştayn bütün həyatı boyu ancaq bir əsər üzərində işləmişdir: "Tractatus Logico-Philosophics" (Məntiq-fəlsəfi traktat).

Dissertasiyanın "Müasir ingilis dilçiliyində dil fəlsəfəsi və dilçilik fəlsəfəsi" adlı üçüncü fəsli üç yarımfəslə bölünmüşdür. Birinci yarımfəsil "N.Xomskinin dil nəzəriyyəsi" adlanır. Müasir dövr dil və dilçilik fəlsəfəsi amerikan dilçisi və ictimai xadim N.Xomskinin adı ilə bağlıdır. O, qrammatik təsvir sisteminin və ya törəmə qrammatikanın yaradıcısıdır. Generativizm öz inkişafı dövründə müxtəlif mərhələlərdən keçmişdir:

1. Standart nəzəriyyə: N.Xomskinin ilk monoqrafiyasına uyğun olaraq adlandırılan "Sintaktik struktur" modeli yaranmışdır. Bu modelə görə dil haqqında təsəvvürlər sonu məlum elementlərdən sonsuz sayda cümlələr yaratmaq mexanizmi kimi başa düşülür. Bu halda o, alt və üst qat qrammatik strukturlardan istifadəni nəzərdə tuturdu. Alt qrammatik strukturlar dedikdə o, birbaşa qavrayışdan uzaq olan və rekursiv sistem tərəfindən yaradı-

---

[1] Chomsky N. Aspects of the Theory of Syntax. Cambridge, MA: MIT Press, 1965, 261 p.

[2] www.tau.ac.il/humanities/philos/dascal/papers/smithw.htm.Marcelo Dascal. "Adam Smith's Theory of Language". 2015, 24 p.

[3] www. Adam Smith's Rational Choice Linguistics. 2015, 9 p.

lan qaydaları, yəni dəfələrlə tətbiq edilə bilən qaydaları nəzərdə tuturdu. Üst qat qrammatik strukturlar dedikdə isə bilavasitə dərk edilən (qəbul edilən) strukturlar nəzərdə tutulur[1]. Burada alt qat strukturlardan üst qat strukturlara keçidi təsvir edən transformasiyalar da nəzərdən qaçmamalıdır.

2.İdarə və əlaqələndirmə nəzəriyyəsi: Bu nəzəriyyəyə keçiddə əsas dəyişiklik konkret dillərin sintaktik strukturlarındakı xüsusi qaydalardan imtina etmək və onların vahid universal transformasiya ilə əvəzlənməsi olmuşdur.

3. Minimalist proqramı: bu proqramın əsası N.Xomski tərəfindən bir neçə məqalə şəklində bəyan edilmişdir və sonralar "*The Minimalist Program* (1995)" adı ilə nəşr edilmişdir. Bu proqram (nə model, nə də nəzəriyyə olmayaraq) dil təsəvvürlərinin minimallaşdırılmasını nəzərdə tutur.

N.Xomski dilin təkamülü nəzəriyyəsinin müəllifidir. O və tərəfdarları inanırlar ki, insan təbiəti geniş şəkildə bioloji amillərlə müəyyənləşir. N.Xomski və onun tərəfdarları dilin inkişafında təbiət seçimlərini inkar edərək burada digər amillərin olduğunu dəfələrlə vurğulamışlar. Onlar iddia edirdilər ki, dilin təkamülü sirli, hələ də mənası açıqlana bilməyən inkişaf formaları, qanunları vasitəsilə yaranmışdır. N.Xomski inanır ki, ilk əvvəl insanın düşüncəsi yaranıb və bu da sonra dili yaradır. D.Bikertonun isə inandığı odur ki, ilk əvvəl dil yaranır və sonra insan düşüncəsini yaradır[2].

N.Xomskinin də dil və danışıq qarşılaşmasına öz münasibəti olmuşdur. O yazır ki, dil səriştədir və səriştəni həyata keçirmək vasitəsidir. F.de Sössür dil fəaliyyəti (*language*), konkret dil sistemi (*langue*) və danışıq (*parole*) konsepsiyasından çıxış edirdisə, N.Xomski səriştəni (kompetensiyanı) və onun bilavasitə tətbiqini (performance) əsas götürür. Birincisi dildə danışa bilmək üçün tarixən əldə edilmiş müəyyən bilgidirsə, ikincisi həmin biliklərin bilavasitə danışıqda öz əksini tapmasıdır. N.Xomski biliklə, yəni adamın biliyi və bu biliklər səriştəsi ilə həmin biliyin danışıqda həyata keçirilməsini aydın fərqləndirir[3].

Bu fəslin ikinci yarımfəsli "C.Ostin və C.Syörlün dil fəlsəfəsi" adlanır. Dil fəlsəfəsinin inkişafında böyük rolu olan alimlərdən biri də Con Ostindir. O, dilin mahiyyəti ilə bağlı geniş tədqiqatlar aparmış, eyni zaman-

---

[1] Chomsky N. Language and mind. Cambridge: Cambridge university press, 2006, 190 p.

[2] Bickerton D. Adam's tongue. United States of America. Hill and Wang. A division of Farrar, Straus and Giroux, USA: New York, 2010, 286 p.

[3] Veysəlli F.Y. German dilçiliyinə giriş. Bakı: Təhsil NPM, 2012, 410 s.

da əşyalar və adlar arasındakı bağlılığı da açmağa çalışmışdır. Onun "How To Do Things with Words" ("Sözlərlə əşyaları necə əlaqələndirmək olar") adlı məşhur əsəri də tam bu məsələnin araşdırılmasına həsr edilmişdir[1]. O, "sadə/adi fəlsəfəsini" inkişaf etdirir. Sadə dil filosofları (onların arasında L.Vitqenştayn da vardır) hər gün istifadə olunan "dilin sərbəst və idarə olunan olmaması labüddür" fikrinə etiraz edirlər. C.Ostin gündəlik istifadə olunan sözlərin və söz ailələrinin daxilindəki fərqlilikləri incəliklə müşahidə edə bilmişdir. Onun "performativ danışıq" adlandırdığı bağ - müxtəlifliyi cümlələri (garden - variety statements), hadisələri və vəziyyətləri təsvir etməkdən daha çox onların ayırıcı keyfiyyətlərini açıb göstərir. Onlar hərəkətləri idarə edirlər. Məsələn, performativ /apologise// (üzr istəmək) feilini /I apologize for being late// (Gecikdiyim üçün üzr istəyirəm) cümləsində işlətməklə danışan "üzr istəmək" hərəkətini yerinə yetirir.

C.Ostinin tədqiqatının əsasını sadə dil ifadələrində məna nüanslarının təhlili təşkil edir. O, tədqiqatını performativlər üzərində qurur. Performativlər cümlələrin konversional qrammatikasını sərgiləyir. C.Ostin performativlərin təhlilini kontekstləşdirərkən "danışıq aktlarının" bölgüsünü təklif edir. Həmin aktlar insan unsiyyətində 3 aspekti irəli sürür[2]. Birincisi, sözlərin tələffüzü aktı xüsusi məna və istinad keyfiyyətləri ilə əlaqədardır. Bu əlaqəni C.Ostin "lokutiv akt" adlandırır. İkincisi danışan lokutiv aktları işlətməklə "illokutiv aktlar"a nail olur. Belə ki, danışan nitqin lokutiv aktının xəbərdarlığını illokutiv akt vasitəsilə yerinə yetirir.

*"I warn you that X"*(Səni xəbərdar edirəm ki, X).

C.Ostin qeyd edir ki, illokutiv aktların mənadan daha çox gücü vardır. Üçüncüsü "perlokutiv aktlar" adlanır. Onlar dinləyəndə illokutiv aktların gücünə nail olur. Belə ki, xəbərdar olunan dinləyən nəticədən çəkinmək üçün öz hərəkətlərini dəyişdirir. Bu mənada, C.Ostinə görə, perlokutiv aktlar illokutiv aktların təsirləridir.

Kaliforniya Universitetinin dil üzrə filosofu C.Syörl C.Ostinin ideyalarını yüksək qiymətləndirmiş, onun danışıq aktı nəzəriyyəsini inkişaf etdirmiş, lakin C.Ostinin lokutiv, illokutiv və perlokutiv aktlar arasında üçlü ayrılığının daha dəqiq versiyasını təklif etmişdir. R.Syörl həmçinin uğurlu illokutiv aktların şərtlərinin yaranmasını inkişaf etdirmişdir. Məqsədyön-

---

[1] Thomas M. Fifty Key Thinkers on Language and Linguistics. USA: London and New York, 2011, 306 p.

[2] Austin J.L. How to do Things with Words. Cambridge: Harward University Press MA, 1926, p. 168.

lü güc əldə etmək üçün məsələn, /I promise/to do X// cümləsi kontekstin "hazırlıq şərtlərini" gözləməlidir (eşidən danışanın X performansını dəyərləndirməlidir); "səmimilik şərtləri"(danışan səmimi şəkildə X-ın məqsədini gözləyir); "əsas şərtlər" (danışanın məcburiyyətini hesaba almalıdır) və s.[1].

Dissertasiyanın üçüncü fəslinin üçüncü yarımfəsli "Hazırkı dövrdə dilin mahiyyəti ilə bağlı tədqiqatlar" adlanır.

XX əsrdə yaşayıb-yaratmış "Kazan məktəbinin"ən aparıcı fiquru olan J.A.Boduen de Kurtene linqvistik dixotomiya ilə məşğul olmuşdur. Dilin mahiyyətinə gəldikdə, J.A.Boduen Kurtene dili psixi-ictimai hadisə, dilçiliyi isə psixi-ictimai elm hesab edirdi.O, göstərirdi ki, dildə hər şey yaşayır, hərəkət edir və dəyişir və bunlar da müəyyən qanunauyğunluqlara uyğun baş verir.[2]

Digər görkəmli dilçi F.de Sössür olmuşdur. O, XX əsr strukturalist dilçiliyinin əsas prinsiplərini müəyyənləşdirmişdir. F.de Sössürün göstərdiyi fərqliliklərdən ən əhəmiyyətlisi iki sahəni öyrənmək olmuşdur:

1. Dilin diaxronik öyrənilməsi (dilin zamanla necə dəyişməsi) .

2. Dilin sinxronik öyrənilməsi. Bu nəzəriyyə dilin statik və müstəqil fenomen kimi öyrənilməsini irəli sürür. Dilin sinxronik öyrənilməsi F.de Sössür dövründə də artıq mövcud idi[3]. F.de Sössürün fərqləndirici istiqamətlərindən biri də "langue"-"parole" qarşılaşmasıdır. Birincini "dil" kimi, ikincini isə "danışıq" kimi tərcümə etmək olar. F.de Sössür kursunun digər əsas istiqamətini onun linqvistik əlamətlərin təbiəti haqqındakı fikirləri təşkil edir. "Langue" əlamətlər zəncirini əhatə edir və onların hər birinin 2 üzvü vardır: "signifier" (işarələyən) (xüsusi psixolinqvistik səs formaları nümunələri, səslərin özü deyil) və "signified" (işarələnən) (psixolinqvistik anlamda işarə "əşyanın özünü deyil, fikri ifadə edir"). O, həm də linqvistik birləşmələr arasındakı əlaqələrin (sintaqmatik və paradiqmatik) 2 növü arasında fərqi müəyyən edir:

E.Sepirin də dil haqqında fikirləri maraqlıdır. O yazır:

"... [dilin səsləri] simvolik olaraq müəyyən sistemin bərabər məxsus olduğu sistemdir ..." [4].

---

[1] Searle J.R. Speech Acts. Cambridge: Cambridge University Press, 1969, 203 p.

[2] Бодуен де Куртене И.А. Избранные труды. ч. 1, Москва, 1963.

[3] Koerner E.F.K. Ferdinand de Saussure: Origin and Development of his Linguistic Thought in Western Studies of Language, Braunschweig: Vieweg. 1973, 428 p.

[4] Thomas M. Fifty Key Thinkers on Language and Linguistics. USA: London and New York, 2011, 306 p.

E.Sepir həmçinin psixoloji və mədəni fenomen kimi dilin linqvistik sınağını da keçirtmişdir. Onun "Dil" kitabı dil dəyişikliyindən bəhs edir. O, yazırdı: "Dil" sosial problemlər və proseslər haqqında bizim düşüncələrimizi güclü şəkildə şərtləndirir. Canlılar obyektiv dünyada tənha yaşamırlar. Dil sosial fəaliyyətin olduğu dünyada sadəcə anlama kimi başa düşülmür, xüsusən dil ... "real dünya" qrup vərdişlərinin üzərində şüursuzluqla qurulmuş geniş bir anlamdır[1].

L.Blumfildin 1933-cü ildə çıxan kitabı amerikan strukturalist dilçiliyini təmsil edir[2]. O, Sössürün sinxroniyasını, həmçinin də diaxroniyasını qəbul edir, linqvistik quruluşun sistemliyi ilə hər ikisinə diqqəti cəlb edir və tarixən dillərin təkamülünü araşdırır. O, həmçinin səs dəyişikliyinin müntəzəmliyi haqqında olan neoqrammatik ehtimalları da müdafiə edir. O, qeyd edir ki, semantikanı "dilin öyrənilməsində ən zəif hal hesab etməsinə baxmayaraq", onun (dilin) mexaniki elm kimi öyrənilməsini linqvistik birləşmələrin formalarının və fərqliliklərinin müəyyən edilməsindən uzaqlaşdırırdı[3].

V.D.Uitni dil dəyişikliyi üçün ehtimal olunan analogiya kimi Ç.Darvinin təkamül nəzəriyyəsini qəbul edirdi[4]. O dili sosial institut hesab etdiyindən, dilin öyrənilməsini sadəcə tarixi fəaliyyətin bir növü hesab edirdi.

B.Uorf dilin, düşüncənin və mədəniyyətin əlaqəsini müəyyən etməyə cəhd etmişdir. Öz dəst-xəttinə görə o, E.Sepirin davamçısı da hesab olunurdu desək, yanılmarıq[5]. B.Uorfun nəzəriyyəsi "Uorf fərziyyəsi", yaxud "Sepir-Uorf fərziyyəsi" adlanırdı. Onun nəzəriyyəsi belə idi ki, dil idraka xüsusi forma verən amildir və müxtəlif dillər idraka müxtəlif şəkildə təsir göstərir.

Başqa bir dilçi P.Qraysın qarşısına qoyduğu əsas məqsəd mənanın təbiətini öyrənmək idi[6]. P.Qrays dilin mənalarını anlamaq üçün təbii dili məntiqi vacib vasitə hesab edirdi. O, C.Ostinin dil barədə gümanlarını qə-

---

[1] Mouton de Gruyter. The Collected Works of Edward Sapir: Vols 1-16, Germany: Berlin, 1994, 963 p.
[2] Thomas M. Fifty Key Thinkers on Language and Linguistics. USA: London and New York, 2011, 306 p.
[3] Bloomfield L.. An Introduction to the Study of Language. 1914 (J.F.Kess, ed.), Henry Holt, New York (reprinted by John Benjamins, 1983, 335 p.
[4] Whitney W. D. Language and the Study of Language. New York, Reprinted by AMS Press, 1971, 489 p.
[5] Thomas M. Fifty Key Thinkers on Language and Linguistics. USA: London and New York, 2011, 306 p.
[6] Thomas M. Fifty Key Thinkers on Language and Linguistics. USA: London and New York, 2011, 306 p.

bul edir və sadə dil keyfiyyətlərini kommunikativ məqsədləri qarşılamaqla dəqiq bütöv daş hesab edir[1]. Mənanın anlamı ideyasını inkişaf etdirərək P.Qrays semantika və praqmatika arasında sərhəd çəkirdi. O, hesablaya bilirdi ki, sözlərin və cümlələrin xüsusiyyətlərindən məna necə yaranır və sosial təsirdə sözlərin və cümlələrin mənaları necə dəyişir.

Azərbaycan dilçiliyində dilin mahiyyəti ilə yaxından məşğul olan alimlərdən A.Axundovu misal göstərmək olar. Dil nədir sualına o belə cavab verir: "Dil ictimai hadisədir. ...xalq kütlələrinin sərvəti olan dil, onlar üçün fikrin yeganə vasitəsi, ifadə alətidir"[2].

Deyilənləri nəzərə alaraq dili aşağıdakı kimi ümumiləşdirə bilərik: dil sistemdir, müəyyən vahidlərin işlənməsi üçün lazım olan qaydalar məcmusudur; dil ixtiyaridir, ifadə edilənlə ifadə olunan arasında birbaşa əlaqə yoxdur; dil səslərdən ibarətdir, o səslərdən yaranır, bunlar tələffüz olunur və eşidilirlər; dil simvolikadır; dil fikrin daşıyıcısıdır, insanlar fikirlərini dillə ifadə edirlər.

Dilin məzmunu ilə əlaqədar aşağıdakı nəticələr əldə edilmişdir.

1. Dilin mənşəyi və mahiyyəti ilə bağlı məsələ lap qədim zamanlardan müzakirə obyekti olmuşdur və bunlarla bağlı fikirlər və konsepsiyalar "ontologiya" adı altında birləşdirilir.

2. Dilin tarixi barədə fikirləri araşdırdıqda onun, bəşər övladının mövcud olduğu vaxtdan mövcudluğu fikrini irəli sürmək mümkündür.

3. Dil insanlar arasında ünsiyyət vasitəsi olmaqla qeyri-verbal vasitələrdən fərqlənir.

4. Qədim dövr dilçiliyində dil və gerçəklik arasında qarşılıqlı əlaqənin olması və dilin təfəkkürlə ayrılmaz bir vəhdətdə olması göstərilmişdir. Qədim Yunanıstanda dil fəlsəfi baxımdan izah edilirdi və onun bir qolunu təşkil edirdi. Qədim yunan filosofları dilin yaranmasını insanın mənşəyi ilə əlaqələndirirdilər və qədim insanların vəhşi heyvanların hücumlarından qorunmaq üçün birləşdikdə bir-birləri ilə ünsiyyət saxlamaq üçün istifadə etdikləri yeganə vasitənin dil olduğunu göstərirdilər.

5. Dilin mənşəyi ilə bağlı mövcud fikirlərdən biri və ilki, dilin Allah tərəfindən insanlara bəxş edilmiş nemət olması barədə faktdır. Həm qədim, həm də orta əsrlərdə dilin Allah tərəfindən Adəmə azacıq söz şək-

---

[1] Grice H.P. Studies in the Way of Words. Cambridge: Harward University Press, 1989, 394 p.
[2] Axundov A. Ümumi dilçilik. Bakı: Maarif, 1988, 98 s.

lində verilmiş olması, lakin sonralar onun insanlar tərəfindən inkişaf etdi-rilməsi fikri də geniş yayılmış bir fikir idi.

6. Dilçilik tarixində V. fon Humboldt dili "xalqın ruhu" adlandırır və onu dillərin müxtəlifliyinin səbəbi kimi qələmə verir.

7. Dilin ictimai təbiətə malik olması eyni zamanda onun əsas vəzifələrini də müəyyənləşdirməyə təsir edir. Belə ki, dilin əsas funksiyaları və ya vəzifələri sırasında nominativ və kommunikativ funksiyalar yer alır.

8. İngilis filosofları ünsiyyət üçün dili ən əsas instrument hesab edirdi. Onlar dil-təfəkkür əlaqəsinə inanaraq, onun təbiətə yaxın olmasını və nəticə etibarilə, onun daha erkən yaradılmasını bildirmişlər.

9. N.Xomskinin fikrincə, dilin bütün hissələri öz-özünə beyində yaranır. Fikir və ünsiyyət arasındakı əlaqə dildəki balansla müşahidə olunur. O, qeyd edirdi ki, dil dünyada düşüncə və quruluş üçün sistemdir və bunlar da ünsiyyət üçün bir vasitədir. N.Xomski və onun davamçıları dilin təbiətdən yaranması seçimini heç vaxt qəbul etməmişlər. Onlar dilin inkişafında başqa amillərin - dilin inkişafının hələ kəşf olunmamış qanunları ilə bağlı olan sirlərin olduğunu iddia edirdilər.

Dissertasiyanın əsas məzmunu və elmi müddəaları müəllifin aşağıdakı dərc olunmuş əsərlərində öz əksini tapmışdır:


1. Dil haqqında nəzəriyyələrin xülasəsi // Filologiya məsələləri. AMEA, Füzuli adına Əlyazmalar İnstitutu, 2015, №7, s. 51-55

2. Sözlər və adları seriyasından // Humanitar Elmlərin öyrənilməsinin aktual problemləri. Bakı Slavyan Universiteti, 2015, №4, s. 29-33

3. Dil və protodil // Elmi xəbərlər. Azərbaycan Dillər Universiteti, 2015, № 6, s. 79-83

4. The essence of language as a biological and sociological event / III International Scientific Conference of Young Researches. Qafqaz University, Baku, 2015, 1051-1052 pp.

5. О соотношении слов и их обозначений // Фiлологiчнi науки, Випуск 24, Частина 2, Полтава, 2015, с. 55-59

6. Dilin mahiyyəti ilə bağlı bəzi qeydlər // Dil və Ədəbiyyat. Azərbaycan Dillər Universiteti, 2015, №2, s. 61-65

7. Dünya dil fəlsəfəsi kontekstində dilin öyrənilməsi nəzəriyyəsi / IV International Scientific Conference of Young Researches, Qafqaz University, Baku, 2016, pp.1248-1249

8. The Evalution of the Language from the Philosophers' Viewpoint // International Journal of English Linguistics. Canadian Center of Science and Education, Toronto, vol.6, No. 5, 2016.

Ханум Салим гызы Ахмедова

# ИССЛЕДОВАНИЕ АНГЛОЯЗЫЧНЫХ ИСТОЧНИКОВ О СУЩНОСТИ ЯЗЫКА

## РЕЗЮМЕ

Диссертация посвящена исследованию англоязычных источников о сущности языка. Работа состоит из введения, трех глав, заключения и библиографии.

"*Введение*" содержит актуальность темы, ее научную новизну, теоретическую и практическую значимость. Здесь также дается информация о целях, задачах, методах, апробации и структуре диссертации.

Первая глава под названием "*Исследование ранних источников о сущности языка*" охватывает взгляды различных древних и средневековых школ и традиций о сущности языка. Здесь также выявляется значительная роль школы младограмматиков на формирование Американской дескриптивизма.

Во второй главе именуемой "*Влияние В. фон Гумбольдта на англоязычные источники о сущности языка*" приведен широкий обзор теории В. Фон Гумбольдта о сущности языка и ее роли в формировании гипотезы Сепира и Уорфа. В данной главе также рассматриваются взгляды английских философов (Б.Рассел, Дж.Лока, А.Смит) о сущности языка.

Третья глава диссертации называется "*Философия языка и лингвистическая философия о сущности языка в современной англинистике*". В этой главе расматриваются вклад лингвистических теорий Н.Хомского, Дж.Остина и Дж.Сьерла и других современных теорий по исследованию сущности языка.

Основные результаты исследования обобщены в "*Заключении*".

Khanim Salim Ahmadova

# THE STUDY OF THE ENGLISH SOURCES ON THE NATURE OF LANGUAGE

## SUMMARY

This thesis explores the English sources on the nature of language. It consists of the introduction, three chapters, conclusion and bibliography.

The "*Introduction*" includes the actuality of the theme, its scientific novelty, theoretical and practical significance of the research, its goals and objects, the research methods, the approbation and the structure of the thesis.

The first chapter titled "*Investigation of the early sources on the nature of language*" covers the views of the ancient and medieval schools and traditions on the nature of language and their influence on the English sources. It also reveals the considerable role of the school of Young Grammarians in the establishment of the American Descriptivist tradition.

The second chapter titled "*W.Von Humboldtian influence on the English sources on the nature of language*" gives a broad view of the theory of W. Von Humboldt on the nature of language and its role in the formation of Sapir-Whorf hypotheses on linguistic relativity and linguistic determinism. It also focuses on the views of the English philosophers (B.Russel, J.Locke) to the study in the nature of language.

The third chapter of the dissertation titled "*The philosophy of language and the linguistic philosophy on the nature of language in the contemporary English linguistics*" deals with the contrubution of N.Chomsky's language theory, J.Austin and J.Searle's language philosophy and other contemporary theories to the study on the nature of language.

The main results of the research are summarized in the "*Conclusion*".

Çapa imzalanıb: 12.06.2018.
Format: 60x84 1/16. Tiraj: 100.

**«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi**
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

АЗЕРБАЙДЖАНСКИЙ УНИВЕРСИТЕТ ЯЗЫКОВ

*На правах рукописи*

ХАНУМ САЛИМ гызы АХМЕДОВА

# ИССЛЕДОВАНИЕ АНГЛОЯЗЫЧНЫХ ИСТОЧНИКОВ О СУЩНОСТИ ЯЗЫКА

5708.01 - Германские языки

А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии по филологии

БАКУ – 2018